Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Ermənistanda Samvel Karapetyanın qardaşı oğluna cinayət işi açılıb

indicə




Narek Karapetyan

Ermənistan Prokurorluğu parlament seçkilərində "Güclü Ermənistan" alyansının seçki siyahısına rəhbərlik etmiş və deputat mandatı qazanmış **Narek Karapetyan**a cinayət işi açıb. Bu haqda Baş Prokurorluğunun nümayəndəsi AzadlıqRadiosunun erməni xidməti və “Armenpress” agentliyinə məlumat verib.

Narek Karapetyan zorakılıq və ya hədə-qorxu tətbiq etməklə insanları toplantıda iştiraka məcburetmə, xüsusilə külli miqdarda pul vəsaitlərinin yuyulması maddələri ilə ittiham olunur.

Bundan əvvəl Ermənistan Mərkəzi Seçki Komissiyası onu cinayət məsuliyyətinə cəlb etməyə, lakin həbs etməməyə icazə verib. 35 yaşlı Karapetyan deputat seçildiyi üçün

deputat toxunulmazlığı var.

Narek Karapetyan Rusiyada sərvət toplamış iş adamı, “Güclü Ermənistan”ın lideri **Samvel Karapetyan**ın qardaşı oğludur. Samvel Karapetyan hazırda ev dustaqlığında saxlanılır. O, Ermənistanda hakimiyyəti ələ keçirməyə çağırışlar, konstitusiya quruluşunu devirməyə cəhd və xüsusilə külli miqdarda çirkli pulların yuyulmasında ittiham olunur.

Prokurorluğun Narek Karapetyanla bağlı vəsatəti Samvel Karapetyanın silahdaşı **Alik Aleksanyan**ın həbs olunduğu cinayət işi ilə əlaqədardır. Alik Aleksanyan xüsusilə külli miqdarda çirkli pulların yuyulması və seçicilərin ələ alınmasında ittiham edilir.

Bundan bir gün əvvəl – iyulun 21-də isə hazırda seçkiqabağı rüşvət paylamaqda ittiham olunaraq həbsdə saxlanılan "Güclü Ermənistan"ın daha iki namizədi – David Qazinyan və Ayk Sukiasyan deputat mandatı alıblar.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur